## Şəfiqə Şəfa

# ŞƏHƏRƏ QAR YAĞIR

Şəhərə qar yağır - quşbaşı, lopa-lopa,
Gah sürətli, gah da ki, sakitcə, ağır-ağır...
Əyri-üyrü xətt salır küçələrə axışan,
Ora-bura qaçışan insanların izləri,
Büzüşüb əzgin, fağır, üşümüş bənizləri...
Dodağım qımışır bu mənzərədən,
Seyr edib ətrafı öz pəncərəmdən.
Qəribə fikirlər bürüyür məni,
İstər-istəməz sual yaranır:
Hanı dünənədək mədəni,
Nəzakət dolu sakinlər?
Günün istisində gülən gözləri
Görən nədən narazıdır?
Getdiyi yolları qısaltmaq üçün
niyə bir-birilə itələşirlər?
Bəlkə şaxta silib simalardakı
mehriban baxışı, şən gülüşləri?!
Sanki bir neçə saata qocalıb Bakı,
Saçları ağarıb səmadan yağan
ağ rəngli boyadan...
Elə bil beli də bir az bükülüb,
Soyuğa dözməyir, yaman büzüşüb.
Dünənki al-əlvan, parlayan şəhər
Bu səhər ağ-qara şəkillər kimi
rəngini itirib...
İndi bir az da
dünənə nisbətən sanki kiçilib...
Şəhərə qar yağır,
Mənim taleyimə yağırmış kimi.
Bakıya soyuqdur yaman üşüyür,
Ömrümdə, bəxtimdə hökmünü sürən
üzü qara gəlmiş soyuq qış kimi...

Acı təbəssümə bələnmiş fikir,
Bir kədər göynədir qəlbimi mənim:
Şəhərin bu qışı daimi deyil,
Bitəcək axı!
Sabah, həftə sonra, ya da uzağı
Bir aya isinər qışın sazağı.
Yenə bahar gələr, Bakı rənglənər,
Bax onda şəhər, halıma gülər -
Seyr edər mənim tək "pəncərə"sindən
Bitməyən qışımı - əbədi yol yoldaşımı!

**Ədəbiyyat.- 2016- cı il.- 17 dekabr.- S. 3.**